

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 194 (21.855)

13 oktyabr 2017-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2017-ci il 12 oktyabr tarixli sərəncamları ilə Azərbaycanda dəmir yolu nəqliyyatının inkişafında səmərəli fəaliyyətlərinə görə bir qrup şəxs təltif edilmişdir.

Təltif olunanlar arasında "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətinin işçiləri də vardır.

**İsmayılov Məmməd İsmayıl oğlu**

"Tərəqqi" medalı ilə,

**Əliyev Musa Ərrəhman oğlu**

"Əməkdar mühəndis" fəxri adı ilə təltif edilmişlər.

## Cari ilin 9 ayında Heydər Əliyev Muzeyini 9600-ə yaxın tamaşaçı ziyarət edib



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 19 dekabr tarixli "Muzeylərlə əlaqələrin daha da gücləndirilməsi haqqında" Sərəncamı muxtar respublikada fəaliyyət göstərən muzeylərə kollektiv gedişlərin təmin olunmasında böyük rol oynayır. Belə muzey ziyarətləri tamaşaçılar qarşısında qədim oğuz yurdunun tarixi keçmişinin, mədəniyyətinin, bu yurdun görkəmli şəxsiyyətlərinin həyat və fəaliyyətlərinin hərtərəfli öyrənilməsinə geniş imkanlar açıb. Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyi isə muxtar respublikada ən çox ziyarət edilən mədəniyyət müəssisəsidir.

Cari ilin ötən 9 ayında Heydər Əliyev Muzeyini 9596 nəfər ziyarət edib. Onlardan 7089-u yerli, 2507-si isə xarici ölkələrdən gələn qonaqlar olub. Bununla yanaşı, bu mədəniyyət müəssisəsi ilə tanışlıqda muxtar respublikanın təhsil müəssisələri ilə yaradılmış məktəb-muzey şəbəkəsi də böyük rol oynayır. Belə ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında" 2014-cü il 20 iyun tarixli Sərəncamına uyğun olaraq cari ilin fevral ayının 1-dən sentyabrın 30-dək Heydər Əliyev Muzeyində müxtəlif mövzularda orta ümumtəhsil məktəbləri şagirdlərinə 31, orta ixtisas məktəbləri tələbələrinə isə 38 saat olmaqla açıq dərslər keçilib. Bu dərslərdə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Azərbaycanın dövlət müstəqilliyinin qorunub saxlanılması, gələcək inkişafının təmin olunması, dövlətimizin dünyada tanıdılması istiqamətində gördüyü mühüm işlər barədə dinləyicilərə geniş məlumatlar verilib.

Heydər Əliyev Muzeyi ilə tanış olmaq üçün muzeyin internet saytından istifadə edənlər də az deyil. Cari ilin 9 ayı ərzində muzeyi virtual olaraq izləyən tamaşaçıların sayı 44 min 400 nəfər təşkil edib.

Qeyd edək ki, görkəmli ictimai-siyasi və dövlət xadimi, dünya şöhrətli siyasətçi, Azərbaycan xalqının əbədiyaşar lideri olaraq hələ sağlığında canlı əfsanəyə çevrilmiş ulu öndərimizin adını daşıyan Heydər Əliyev Muzeyi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 18 fevral 1999-cu il tarixdə imzaladığı Sərəncamla muxtar respublikanın paytaxtı Naxçıvan şəhərində yaradılıb və 1999-cu il mayın 10-da fəaliyyətə başlayıb. Hazırda muzeydə 4665 eksponat nümayiş etdirilir ki, onlardan 36 ədədi bu ilin ilk 9 ayında qəbul edilib.

✍ **Səbuhi HƏSƏNOV**

## Şura iclasında görülmüş işlər və qarşıda duran vəzifələr müzakirə olunub



***Yeni Azərbaycan Partiyası Culfa Rayon Təşkilatının növbəti şura iclasında cari ilin 9 ayında görülən işlərdən və qarşıda duran vəzifələrdən danışılıb.***

Tədbiri təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Qadir İbrahimov giriş sözü ilə açaraq məruzə ilə çıxış edib. Bildirib ki, bu il noyabrın 21-də yaranmasının 25 ili tamam olan Yeni Azərbaycan Partiyası ölkəmizin ictimai-siyasi həyatında mühüm yer tutub, xalqımızın inam və etimadını doğruldub, ümummilli lider Heydər Əliyev ideyalarını layiqincə həyata keçirən ümumxalq partiyasına çevrilib. Partiyanın ulu öndər tərəfindən müəyyənləşdirilən və ötən dövrdə uğurla həyata keçirilən əsas məramı Azərbaycanda dövlət müstəqilliyinin qorunub möhkəmləndirilməsi, ölkənin ərazi bütövlüyünün təmin edilməsi, demokratik, hüquqi, dünyəvi cəmiyyət qurulması, ictimai-siyasi sabitlik, milli həmrəylik, güclü sosialyönümlü iqtisadiyyat yaratmaq olub. Bütün bunlar uğurla reallaşdırılıb.

Vurğulanıb ki, ümummilli liderimizin siyasi kursu bu gün Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu siyasətin nəticəsidir ki, muxtar respublikamızda da bütün sahələrdə inkişaf təmin edilib, əhalinin sosial vəziyyəti yaxşılaşdırılıb, Naxçıvan çiçəklənən bir diyara çevrilib. Muxtar respublikanın quruculuq xəritəsində Culfa rayonu da xüsusi yerə sahibdir. Yeni Azərbaycan Partiyası Culfa Rayon Təşkilatının üzvləri də bu proseslərdə yaxından iştirak edir, bütün tədbirlərdə fəallıq göstərirlər.

Qadir İbrahimov məruzəsində qeyd edib ki, rayon təşkilatında nizam-intizama xüsusi diqqət yetirilir, yüksək mənəvi keyfiyyətə malik, Heydər Əliyev yoluna və siyasi irsinə böyük məhəbbət və inamı olan vətəndaşlar partiya sıralarına üzv qəbul edilirlər. Ərazi ilk təşkilatlarında ideoloji işin təşkilinə diqqət daha da artırılıb. Rayon təşkilatı cari ildə gənclərlə işi daim diqqət mərkəzində saxlayıb. Gənclər Birliyinin, Qadınlar Şurasının üzvləri vətənpərvərliyin təbliği işində yaxından iştirak ediblər, şəhər və kəndlərdə tez-tez görüşlər təşkil olunub. Ötən 9 ayda təşkilat tərəfindən idarə heyətinin 9, şuranın 3 iclası, 3 toplantı, 1 elmi-praktik konfrans keçirilib.

Diqqətə çatdırılıb ki, hazırda rayon təşkilatının 55 ərazi ilk partiya təşkilatının tərkibində 5 min 510 partiya üzvü var. Onlardan 2 min 604-ü qadınlar, 1701-i gənclərdir. Cari ildə partiya sıralarına 81 üzv qəbul olunub. Onlardan 38-i qadın, 68 nəfəri isə gənclərdir. Ötən 9 ay ərzində Naxçıvan Muxtar Respublika ərazisindəki ilk partiya təşkilatlarından 32 nəfər rayon təşkilatında qeydiyyata alınıb, başqa rayonlara getməsi ilə əlaqədar 8 nəfər qeydiyyatdan çıxarılıb.

Təşkilati işlərin bundan sonra da diqqətdə saxlanacağını vurğulayan Qadir İbrahimov qeyd edib ki, təşkilat üzvlərinin bir ali məqsədi olmalıdır: ümummilli lider Heydər Əliyev siyasi irsinə dərin sədaqət. Onlar təşkilati işləri daha da gücləndirməli, partiyamızın cəmiyyətdə tutduğu yüksək mövqeyin qorunub saxlanmasında üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirməlidirlər.

Təşkilat Yeni Azərbaycan Partiyasının 25 illik yubileyinin yüksək səviyyədə keçirilməsi ilə əlaqədar tədbirlər planı hazırlayıb. Həmin tədbirlərin həyata keçirilməsində bütün üzvlər fəal iştirak edəcəklər.

Sonra Yeni Azərbaycan Partiyası Culfa Rayon Təşkilatı Gənclər Birliyi İdarə Heyətinin üzvü Rauf Hüseynov, Qadınlar Şurasının sədri Xanım Tağıyeva, rayon təşkilatının şura üzvü Sevinc Mustafayeva, Culfa şəhər Uşaq musiqi məktəbi ərazi ilk partiya təşkilatının sədri Samirə Səfərova çıxış ediblər.

Şura iclasında müzakirə olunan məsələ ilə əlaqədar qərar qəbul edilib.

**Hüseyn ŞƏKƏRƏLİYEV**

## "Dövlət orqanlarında əmək münasibətlərinin tənzimlənməsi" mövzusunda seminar



*Dünən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın inzibati binasında 52 dövlət orqanı nümayəndəsinin iştirakı ilə "Dövlət orqanlarında əmək münasibətlərinin tənzimlənməsi" mövzusunda seminar keçirilib.*

Komissiyanın sədri İsmayıl Qəribli həmin mövzuya həsr olunmuş çıxışında bildirib ki, "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanunu inzibati vəzifə tutan dövlət qulluqçularının hüquqi vəziyyəti ilə bağlı məsələləri nizama salır. Yardımçı vəzifə tutan dövlət qulluqçuları ilə əmək münasibətləri həmin qanunun müddəaları nəzərə alınmaqla Azərbaycan Respublikasının Əmək Məcəlləsi ilə tənzimlənir. Mövcud qanunvericiliyin düzgün tətbiq olunması üçün mütəmadi olaraq seminarlar təşkil edilir. Lakin bəzi hallarda qanunvericiliyin, xüsusən də əmək münasibətlərini tənzimləyən normaların pozulması halları müşahidə olunur ki, bu da dövlət orqanlarının qərarlarının ləğv olunması, bəzi hallarda isə məhkəmə çəkişmələri ilə nəticələnir. Bugünkü seminarın məqsədi dövlət orqanlarında əmək münasibətlərinin tənzimlənməsi qaydaları ilə bağlı qanunvericiliyin tələblərinin bu sahə üzrə məsul olan dövlət qulluqçularının diqqətinə çatdırılması və tətbiqinin təmin edilməsidir.

Daha sonra Naxçıvan Muxtar Respublikasının İnzibati-İqtisadi Məhkəməsinin sədri Hicran Muradov "İnzibati icraat haqqında" Qanunun və əmək qanunvericiliyinin dövlət orqanlarında tətbiqi zamanı yaranan problemlər" mövzusunda çıxış edərək deyib ki, Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra bütün sahələrdə olduğu kimi, dövlət quruculuğu və hüquq sistemində də köklü islahatlar aparılıb. Azərbaycan xalqının milli, mədəni və tarixi ənənələrinə söykənərək hüquqi, demokratik dövlət yaradılmasına və vətəndaş cəmiyyətinin bərqərar edilməsinə böyük imkanlar yaradan bu islahatlar, ilk növbədə, insan hüquqlarının daha etibarlı şəkildə təmin edilməsinə xidmət edir. Ölkəmizdə bu istiqamətdə həyata keçirilən hüquqi islahatların davamı kimi növbəti addım "İnzibati İcraat haqqında" Azərbaycan Respublikası Qanunu və İnzibati Prosessual Məcəlləsinin qəbul edilməsi olub.

Vurğulanıb ki, bu qanun inzibati orqanlar tərəfindən inzibati aktların qəbul edilməsi, icra olunması və ya ləğv edilməsi ilə bağlı həyata keçirilən fəaliyyətin hüquqi əsaslarını, prinsiplərini və prosedur qaydalarını müəyyən edir. Eyni zamanda bu qanunun müddəaları inzibati orqanların fiziki və hüquqi şəxslərə münasibətdə faktiki xarakterli digər fəaliyyətinə (hərəkətlərinə) də şamil olunur.

Hicran Muradov məhkəmə təcrübəsində sözügedən qanunların tətbiqi zamanı yaranmış problemlərdən danışıb, dövlət orqanları tərəfindən vətəndaşların müraciətlərinə baxılması, dövlət qulluğuna xitam verilməsi, intizam tənbehlərinin tətbiq edilməsi zamanı buraxılmış nöqsanlardan, həmçinin qanunda nəzərdə tutulmuş inzibati orqanların və onların vəzifəli şəxslərinin məsuliyyət daşıması məsələlərindən söhbət açıb. O, mövcud qanunvericiliyin tələblərini seminar iştirakçılarının diqqətinə çatdırıb.

Çıxışlardan sonra iştirakçıları maraqlandıran suallar ətraflı cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın mətbuat xidməti***

## Dağ kəndində kompleks quruculuq tədbirləri həyata keçirilir

Ordubad rayonunun ucqar yaşayış məntəqəsi olan Üstüpü kəndində kompleks quruculuq tədbirlərinə cari ilin mart ayından başlanılıb. Quruculuq tədbirləri çərçivəsində kənddə tam orta məktəb, kənd və xidmət mərkəzləri üçün yeni binalar inşa olunur. Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Ordubad Rayon İdarəsinin inşaatçılarına həvalə olunmuş quruculuq işləri bu yaşayış məntəqəsinin sakinlərinə böyük dövlət qayğısının ifadəsidir. İdarənin rəisi Əkrəm Salmanovdan aldığımız məlumata görə, kənddə təhsilin səviyyəsini yüksəltmək üçün inşa olunan 340 şagird yerlik məktəb binası zirzəmi ilə birlikdə 4 mərtəbədən ibarətdir. Burada müəllim və şagirdlərin ixtiyarına işıqlı və geniş sinif otaqları, laboratoriyalar, kitabxana, elektron lövhəli sinif və kompüter otağı veriləcək. Binada əsas tikinti işləri başa çatdırılıb. Hazırda inşaatçılar binadaxili suvaq işləri aparırlar.

Üçmərtəbəli kənd mərkəzinin binasında da tikinti işləri sürətlə davam etdirilir. Burada çalışacaq qurumlar üçün müasir iş şəraiti yaradılacaq.

Üstüpüdə inşası davam etdirilən xidmət mərkəzində mağazalar, ət-satışı dükanı, xidmət obyektləri fəaliyyət göstərəcək. Quruculuq tədbirləri çərçivəsində Düylün kəndindən Üstüpü kəndinədək olan avtomobil yolu və kəndarası yollar yenidən işlənəcək, rabitə, elektrik, qaz xətlərində isə təmir-bərpa işləri görüləcək. Obyektlərin yerləşdikləri ərazidə abadlıq işləri aparılacaq.

**Xəbərlər şöbəsi**

*XX əsrin 18-20-ci illərində Azərbaycanda və onun Naxçıvan bölgəsində çox mürəkkəb və ziddiyyətli hadisələr baş verirdi. Siyasi və iqtisadi vəziyyət çətin olduğundan Azərbaycandan lazımi köməyi ala bilməyən Naxçıvanın təkləndiyini görən azğın erməni daşnakları hərbi və siyasi yolla qədim diyarı işğal etmək istəyirdilər.*

Böyük dövlətlərə arxalanan ermənilər Naxçıvan bölgəsinə basqınlar edir, şəhər və kəndləri dağıdırdılar. Ağlasığmaz vəhşiliklər və qırğınlar törədən erməni daşnakları Naxçıvan bölgəsində azərbaycanlıların inadlı müqavimətinə rast gəldilər.

Naxçıvanın qorunub saxlanılması, ərazi taleyinin və muxtariyyət statusunun müəyyənləşdirilməsində Qars müqaviləsinin əvəzsiz rolu vardır. Lakin bunu da xüsusilə qeyd etmək lazımdır ki, Qars müqaviləsinə gedən yol 1921-ci ilin əvvəlində Naxçıvanda keçirilən referendumdan başlanır. Həmin referendum Azərbaycanın görkəmli dövlət xadimi, mahir diplomat Behbud ağa Şahtaxtinskinin apardığı qətiyyətli fəaliyyət nəticəsində baş tutmuş, Naxçıvan əhalisinin yekdil rəyi əsasında bu qədim diyar həmişəlik olaraq Azərbaycanın tərkibində qalmaq hüququ qazanmışdır. Bu referendum özünün hərbi-siyasi əhəmiyyətinə görə Qars müqaviləsinin müddəalarına bərabər əhəmiyyətə malik siyasi hadisədir. Əgər Naxçıvanın ərazi taleyinə dair 1921-ci ilin yanvar referendumu keçirilməsəydi, bəlkə də, Moskva və Qars müqavilələrinə heç ehtiyac da qalmayacaqdı. Bu, Azərbaycan tarixində Behbud ağa Şahtaxtinskinin adı ilə bağlı olan nadir və uğurlu diplomatik gedişdir.

Bu, Behbud ağa Şahtaxtinskinin, eyni zamanda əsl milli siyasətçi və diplomat olmasının da bariz nümunəsidir. Behbud ağa Şahtaxtinski Rusiya XKS-nin sədri V.İ.Leninə göndərdiyi məktubda Azərbaycanın Naxçıvan, Zəngəzur və Dağlıq Qarabağ ərazilərinin gələcəyindən duyulan narahatlığı çatdırmış, həmin mahalların milli tərkibi və coğrafiyasına dair geniş arayışlar və faydalı təkliflər vermiş, nəticədə, bu təkliflər bəyənilərək RK(b)P MK Siyasi Bürosunda müzakirə olunmuş və Azərbaycan SSR tərkibində Naxçıvan SSR-nin təşkil edilməsi haqqında qərar qəbul edilmişdir.

Naxçıvan məsələsi Türkiyə və Rusiya arasında keçirilən görüşlərdə də qızğın müzakirə predmeti olmuşdur. Türk heyəti 2 dekabr 1920-ci il tarixli Gümrü anlaşmasının qüvvədə olduğunu müdafiə edərkən, rus nümayəndələri bu anlaşmanı,

## Beynəlxalq Qars müqaviləsi və Naxçıvan

dolayısı ilə Türkiyənin Naxçıvan üzərində himayə haqqı olduğunu qəbul etmirdilər. Bu görüşlərdə Naxçıvanın muxtar statusa malik olması və digər bir dövlətə verilməməsi şərtilə Azərbaycanın himayəsinə verilməsi qərarlaşdırılmış və müqavilə 1921-ci il martın 16-da imzalanmışdı.

"Dostluq və qardaşlıq haqqında" Moskva müqaviləsi 16 maddədən və 3 əlavədən ibarətdir. Bu müqavilənin üçüncü maddəsində deyilirdi: "Razılığa gələn hər iki tərəf bu müqavilənin 1 (B) əlavəsində göstərilən sərhədlərin içərisində Naxçıvan vilayətinin Azərbaycanın himayəsi altında muxtar ərazi təşkil etməsinə razıdırlar, o şərtlə ki, Azərbaycan bu himayəni heç bir zaman üçüncü bir dövlətə güzəştə getməyəcəkdir".

Qeyd etməliyik ki, Moskva danışıqlarında Naxçıvan məsələsində Azərbaycanın səlahiyyətli nümayəndəsi Behbud ağa Şahtaxtinskinin apardığı diplomatik danışıqlar nəticəsində Türkiyə Gümrü müqaviləsinin, o cümlədən Türkiyənin Naxçıvan diyarına aid maddələrinin qüvvədən düşməsi ilə razılaşdı.

Türkiyə Cümhuriyyəti Cənubi Qafqaz respublikaları ilə müqavilə bağlamaq istəyirdi. Onun əsas məqsədi Ermənistan və Gürcüstanla mübahisəli sərhəd məsələlərini həll etmək idi. Buna görə də 19 aprel 1921-ci ildə Moskvada olan türk nümayəndə heyəti Azərbaycan SSR-in xarici işlər komissarı M.D.Hüseynov və ədliyyə komissarı Behbud ağa Şahtaxtinski ilə görüşüb məqsədini bildirir. B.Şahtaxtinski və M.D.Hüseynov bu təklifi qəbul edir. Və qərara alırlar ki, Qarsda görüşsünlər. Azərbaycan, Ermənistan, Gürcüstan və Türkiyə arasında Qarsda konfrans keçirilməsi qərara alındı.

Türkiyə tərəfi konfrans nümayəndələrinin siyahısını avqust ayında müəyyənləşdirsə də, Sovet Rusiyası nümayəndələrini müəyyənləşdirməyə tələsmirdi. Nəhayət, Türkiyə ilə Sovet Rusiyası arasında aparılan danışıq və müzakirələrdən sonra beynəlxalq konfransın Qarsda keçirilməsi qərara alındı. Azərbaycanı konfransda xalq fəhlə-kəndli nəzarəti komissarı Behbud ağa Şahtaxtinski təmsil edirdi.

Beynəlxalq Qars konfransı 1921-ci il 26 sentyabrda təntənə ilə açıldı. Yeri gəlmişkən, Naxçıvanın maraqlarını konfransda müdafiə etmək üçün Naxçıvan SSR-in Xalq Komissarları Soveti Tağı Səfiyevi Qarsa göndərmişdi. Konfrans 18 gün davam etdi və işində altı dəfə fasilə verildi. Nəhayət, 13 oktyabr 1921-ci ildə Qars müqaviləsi imzalandı.

Bəzi dəyişiklikləri nəzərə almasaq, 20 maddə və 3 əlavədən ibarət olan müqavilənin müddəaları Moskva müqaviləsinin müddəaları ilə uyğun idi. Qars müqaviləsinin 5-ci maddəsinə və 3-cü əlavəsinə əsasən Naxçıvanın Azərbaycanın tərkibində muxtar ərazi statusu Türkiyə, Azərbaycan və Ermənistan hökumətləri tərəfindən təsdiq edilmişdir. 5-ci maddədə yazılırdı: "Türkiyə hökuməti, Sovet Ermənistanı və Azərbaycan hökumətləri razıdırlar ki, indiki müqavilənin 3-cü əlavəsində göstərilən sərhədlərdə Naxçıvan vilayəti Azərbaycanın himayəsi altında muxtar ərazi təşkil edir". Naxçıvan ərazisi: Urmiya kəndi, oradan da düz xətlə Arazdəyən stansiyası (O, Ermənistan Sosialist Sovet Respublikasına qalır), sonra düz xətlə qərbi Daşburun dağını (3142)-oradan şərqi Daşburun dağını (4108)-Cəhənnəm dərəsi çayını keçərək Bulağın ("Rövnə") cənubuna çatır, Bağırsaq (Yağıqşık) dağının (6607), yaxud 6587-ci yüksəkliyin suayrıcı xətti ilə davam edərək keçmiş İrəvan qəzasının inzibati sərhədini, oradan Şərur-Dərələyəz sərhəd xəttini izləyir, 6629-cu yüksəklikdən Kömürlü dağa (6839, yaxud 6930) və oradan 3080-ci yüksəkliyə gəlir. Sayatdağ (7868)-Qurdqulaq (Kurt Kulaq) kəndi-Həməsür dağı (8160)-8022-ci yüksəklik-Küküdağı (10282) və keçmiş Naxçıvan qəzasının inzibati sərhədlərinin şərqi".

Qars müqaviləsinə görə, Naxçıvan ərazisinin Türkiyə ilə sərhədi Arazdəyən stansiyasına qədər 11 kilometr uzunluğunda müəyyən edilmiş, İranla 176 kilometrlik sərhədi isə 1828-ci il Türkmənçay müqaviləsində müəyyən olunduğu kimi saxlanmışdı.

Beləliklə, 1918-ci ildən başlayaraq naxçıvanlıların qəhrəmanlıqla, inadla, ardıcıl, cəsurluqla və ciddiyyətlə apardıqları mübarizənin, Azərbaycan və Türkiyə diplomatlarının məqsədyönlü, səbirli fəaliyyətləri, xüsusilə Behbud ağa Şahtaxtinskinin dəmir iradə ilə apardığı diplomatik manevrlər, yazdığı məktublar, müraciətləri və təklifləri sayəsində əvvəlcə Moskva, sonra isə Qars müqavilələrində Naxçıvan vilayəti Azərbaycanın tərkibində muxtar ərazi kimi Rusiya, Türkiyə, Gürcüstan və Ermənistan tərəfindən tanındı və Naxçıvana beynəlxalq hüquqi təminat verildi.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev Naxçıvana Azərbaycanın tərkibində muxtariyyət statusunun verilməsində Qars müqaviləsinin əhəmiyyətini yüksək qiymətləndirərək demişdir: ***"Naxçıvanın statusunu qoruyub saxlamaq üçün xüsusən Moskva müqaviləsinin və xüsusən Türkiyə Cümhuriyyətinin imzaladığı Qars müqaviləsinin burada böyük əhəmiyyəti olubdur. Naxçıvan Azərbaycanın əsas torpağından ayrı düşdüyünə görə Naxçıvanın bütövlüyünü, təhlükəsizliyini, dövlətçiliyini, muxtariyyətini gələcəkdə də təmin etmək üçün Qars müqaviləsi bizim üçün çox böyük, əvəzi olmayan bir sənəddir".***

Qars müqaviləsi müddətsiz imzalanmışdır və bu müqaviləni imzalayan dövlətlərdən hər hansı biri onu birtərəfli qaydada ləğv edə bilməz. Qars müqaviləsindən sonra Naxçıvan ərazisində Naxçıvan SSR yaradılmış, lakin 16 iyun 1923-cü ildə siyasi və inzibati statusunda dəyişiklik edilən Naxçıvan SSR Naxçıvan diyarına çevrilmişdir. 1924-cü il fevralın 9-da bölgənin inzibati və siyasi statusu bərpa edilərək Naxçıvan MSSR, 1990-cı il noyabrın 17-dən isə Naxçıvan Muxtar Respublikası adlandırılmışdır.

Qars müqaviləsinin ən mühüm tarixi əhəmiyyəti ondan ibarətdir ki, Ermənistan bu müqavilə ilə Naxçıvanı qeyd-şərtsiz Azərbaycan torpağı kimi qəbul etmişdir. Lakin Sovet hökuməti illərində Ermənistan tərəfi dəfələrlə Qars müqaviləsi ilə üzərinə götürdüyü öhdəlikləri pozmuş və tarixi havadarlarının köməyi ilə Naxçıvan diyarının 657 kvadratkilometr sahəsini zəbt etmişdir. Onlar bu prosesi 1990-cı ilədək davam etdirmiş, 1990-cı ildə Şərur rayonunun Kərki kəndini sovet ordusunun köməyi ilə işğal etmişlər.

Bir vaxtlar əhalinin müqaviməti və Behbud ağa Şahtaxtinski kimi böyük siyasi xadimlərin misilsiz xidmətləri sayəsində mövcudiyyətini qoruyan "türk qapısı" Naxçıvan Sovetlər İttifaqının dağılmasından sonra bu dəfə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin siyasi uzaqgörənliyi nəticəsində varlığını mühafizə etdi. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində işlədiyi dövrlərdə ümummilli liderin Türkiyəyə səfəri zamanı Qars müqaviləsi yenidən gündəmə gətirilmişdir.

Ermənistan Respublikasının Naxçıvana qarşı iddialarının heç bir hüquqi əsası yoxdur və bu iddialar beynəlxalq hüquq normalarına ziddir. Həm Moskva, həm də Qars müqavilələri bundan sonra da öz hüquqi qüvvəsini saxlayacaqdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi, ***"Qars müqaviləsi dünən olduğu kimi, bu gün də, gələcəkdə də Naxçıvanın muxtariyyət statusuna təminat verən çox mühüm hüquqi, siyasi və beynəlxalq sənəddir".***

**Musa QULİYEV**
***tarix üzrə fəlsəfə doktoru***

## Furio de Angelis Naxçıvan şəhərinin qədim tarixi abidələri və mədəniyyət müəssisələri ilə tanış olub

*Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığının Azərbaycan Respublikasındakı nümayəndəsi Furio de Angelis Naxçıvan Muxtar Respublikasına gəlib, Naxçıvan Biznes Mərkəzində keçirilən "Sığınacaqla bağlı müraciətlərin yönləndirilməsi mexanizminin təkmilləşdirilməsi" mövzusunda regional təlimdə iştirak edib. Qonaq səfər çərçivəsində Naxçıvan şəhərinin qədim tarixi abidələri və mədəniyyət müəssisələri ilə tanış olub.*





Qonaq əvvəlcə "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksini ziyarət edib. Naxçıvanqala ilə tanışlıq zamanı bildirilib ki, kompleksdəki muzeydə eramızdan əvvəl V minilliyə aid təsərrüfat küpü, eramızdan əvvəl V-III minilliyə aid müxtəlif məişət əşyaları, Son Tunc və Erkən Dəmir dövrlərinə aid keramika məmulatları, mis alətlər, qəbirüstü abidələr, silahlar, zirehli geyimlər nümayiş etdirilir. "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksi hazırda muxtar respublikada mədəni-kütləvi tədbirlərin keçirildiyi mərkəzə çevrilib.

Kompleksin yaxınlığında yerləşən Nuh Peyğəmbərin türbəsi də dahilər yurdunun qədim tarixindən xəbər verir.

Furio de Angelis "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksi ilə də tanış olub.

Naxçıvan şəhərindəki Əcəmi Seyrəngahında açıq səma altında nümayiş etdirilən daş abidələr qonağın diqqətini cəlb edib. Məlumat verilib ki, burada Naxçıvan Muxtar Respublikasının ərazisindən tapılan müxtəlif dövrlərə aid 450 maddi-mədəniyyət nümunəsi – daşdan düzəldilmiş qoç heykəllər, daş kitabələr, müxtəlif daş fiqurlar, qəbirüstü sənduqələr nümayiş olunur.

Azərbaycan milli memarlığının möhtəşəm abidəsi, Şərq memarlığı incilərindən olan Möminə xatın türbəsi ilə tanışlıq qonaqda xoş təəssürat yaradıb. Bildirilib ki, bu möhtəşəm abidə 1186-cı ildə tikilib. Həmin dövrdə Azərbaycanın Atabəylər dövlətinin banisi Şəmsəddin Eldəniz həyat yoldaşı Möminə xatının məzarı üzərində məqbərə yaradılmasına qərar verib və bundan sonra məqbərə görkəmli memar Əcəmi Əbubəkr oğlu Naxçıvani tərəfindən tikilib. Xalqın yaddaşında zaman-zaman "Atabəy günbəzi" adı ilə də qalan abidənin baştağında kufi xətti ilə bu sözlər yazılıb: "Biz gedirik, ancaq qalır ruzigar. Biz ölürük, əsər qalır yadigar". Türbə sərdabə və yerüstü hissələrdən ibarətdir.

Xan sarayında olarkən Furio de Angelisə məlumat verilib ki, bu muzey Naxçıvan xanlığının milli dövlətçiliyimizdəki rolu, Azərbaycanın bu ərazisindəki torpaqlarının qorunub saxlanılmasındakı xidmətləri nəzərə alınaraq yaradılıb. Hazırda 8 ekspozisiya zalından ibarət olan muzeydə yüzlərlə eksponat var. Bu eksponatlar içərisində arxiv sənədləri, fotoşəkillər, Naxçıvan xanlarının şəcərəsi, xanlığın xəritəsi nümayiş etdirilir.

Qeyd edək ki, Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığının Azərbaycandakı nümayəndəsi Furio de Angelisin muxtar respublikaya səfəri dünən başa çatıb.



Səfər təəssüratlarını "Şərq qapısı" qəzetinin müxbiri ilə bölüşən Furio de Angelis Naxçıvan Muxtar Respublikasının Azərbaycanın çox qədim mədəniyyətə, strateji əhəmiyyətə malik bir bölgə olduğunu vurğulayıb. O qeyd edib ki, səfər çərçivəsində tarixi abidələrlə tanışlıq zamanı Naxçıvanın nə qədər qədim tarixə malik olduğunu görüb.

Muxtar respublikaya səfərinin məqsədi haqqında da danışan qonaq deyib: "Naxçıvan Muxtar Respublikasında olmaqdan çox məmnunam. Burada bizim təlim keçirməyimiz üçün də çox gözəl şərait yaradılmışdı. Bununla yanaşı, Naxçıvan Muxtar Respublikası ərazisindəki sərhəd nəzarət-buraxılış məntəqələrinə səfərlər təşkil olundu. Mən hesab edirəm ki, Azərbaycan hökuməti və aidiyyəti qurumlarla olan əməkdaşlığımız bundan sonra daha da möhkəmlənəcəkdir".

BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Azərbaycandakı nümayəndəsi Azərbaycan hökuməti ilə birlikdə qaçqınların və sığınacaq axtaran şəxslərin hüquqlarının müdafiəsi üzrə görülən işlərin davamlı olacağına inandığını bildirib. O, əməkdaşlığın bundan sonra da uğurla davam etdiriləcəyini vurğulayıb.

**Tural AĞAYEV**



*13 oktyabr Azərbaycan dəmiryolçularının peşə bayramı günüdür*

# Naxçıvanda müasir dəmir yolu infrastrukturu yaradılıb

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2005-ci il 5 oktyabr tarixli Sərəncamı ilə hər il oktyabrın 13-ü ölkəmizdə dəmiryolçuların peşə bayramı günü kimi qeyd edilir.***

Azərbaycanda dəmir yolu təsərrüfatının inkişafı ümummilli liderimiz Heydər Əliyevin ölkəmizə rəhbərliyi ilə bağlıdır. 1969-cu ildən etibarən ümummilli liderimizin şəxsi təşəbbüsü sayəsində iqtisadiyyatın digər sahələrində olduğu kimi, dəmir yolu nəqliyyatında da əsaslı dəyişikliklərə başlandı. O dövrə qədər keçmiş SSRİ dəmir yolları sistemində inkişaf sürətlə həyata keçirilirdi. Lakin Azərbaycan dəmiryolu təsərrüfatı diqqətdən kənardan qalmışdı. Dahi rəhbərin dəmir yoluna verdiyi böyük əhəmiyyət, onun inkişafına göstərdiyi qayğı qısa zamanda öz bəhrəsini vermiş, yeni dəmir yolu xətləri çəkilmiş, stansiyalar açılmış, vağzal binaları inşa olunmuşdu. Əgər 1969-cu ilə qədər Azərbaycanda cəmi 159 dəmir yolu stansiyası fəaliyyət göstərirdisə, qısa müddətdə onların sayı 176-ya çatmışdı. Bu dövrdə çəkilmiş yeni dəmir yolu xətlərinin uzunluğu 482,8 kilometr, elektrikləşdirilmiş sahənin uzunluğu isə 1284 kilometr idi. O illərdə Naxçıvan Muxtar Respublikasında da dəmir yolunun müasirləşdirilməsi diqqətdə saxlanılmış, artan yük və sərnişin daşınmasına olan tələbatı təmin etmək, yüksək səviyyədə nəqliyyat xidmətini təşkil etmək məqsədilə 1976-cı ildə dəmir yollarının Naxçıvan Hissəsinin mərkəzi aparatı İmişli stansiyasından Naxçıvan şəhərinə köçürülərək hərtərəfli fəaliyyəti təmin olunmuşdur. 1988-ci ildə isə Culfa-Şərur sahəsinin elektrikləşdirilməsi nəticəsində yük və sərnişin daşınmasında elektrovoz dartısından istifadə olunmasına başlanmışdır.

Ötən əsrin 90-cı illərində baş verən hadisələr, xüsusilə də erməni hərbi birləşmələri tərəfindən Azərbaycan ərazilərinin 20 faizinin işğal edilməsi nəticəsində dəmir yoluna da ciddi ziyan dəydi. Belə ki, 240 kilometrdən artıq dəmir yolu xətti erməni təcavüzü nəticəsində dağıdıldı. Mehri-Kərçivan sahəsində qatarların hərəkətinin dayandırılması nəticəsində Naxçıvan Muxtar Respublikası ölkədən təcrid edilərək blokadaya düşdü və dəmir yolu əlaqəsi kəsildi.

Ümummilli liderin ikinci dəfə Azərbaycanda siyasi hakimiyyətə qayıdışından sonra iqtisadiyyatın bütün sahələrində olduğu kimi, dəmir yolu nəqliyyatı da özünün yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Bu qayğıdan muxtar respublikanın dəmir yolu təsərrüfatına da xeyli pay düşmüşdür. Son illər Naxçıvan, Şərur, Şahtaxtı, Culfa sərnişin vağzalı binalarında, Dəstə, Yaycı, Culfa, Dərəşam, Nehrəm, Qarabörk, Naxçıvan, Şahtaxtı, Qıvraq, Şərur, Vəlidağ stansiyalarının İdaretmə mərkəzlərində, aparatının inzibati binasında, əlavə olaraq 20-yə yaxın inzibati və yardımçı binada əsaslı təmir işləri başa çatdırılaraq istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2011-ci il 16 mart tarixli Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında dəmir yolu nəqliyyat sisteminin 2011-2015-ci illər üzrə İnkişaf Proqramı" muxtar respublikada dəmir yolu nəqliyyatının inkişafına təkan vermişdir. İnkişaf Proqramına uyğun olaraq mühüm dəmiryol qovşağı olan Culfa stansiyasında Yük və Sərnişin Daşımaları İdarəsinin inzibati binası, Culfa Lokomotiv Deposu, Lokomotiv Briqadalarının İdarə edilməsi Mərkəzi və Radio-Rabitə binası əsaslı təmir edilərək istifadəyə verilmişdir. Həmçinin yol-nəqliyyat kompleksinin yeniləşməsi istiqamətində görülən işlərin davamı olaraq Qarabörk və Vəlidağ stansiyalarında yükləmə və boşaltma meydanı yaradılmışdır. Bu sahədə görülən işlər çərçivəsində Culfa stansiyasında "Naxçıvanterminal-kompleks" Birliyi üçün 258 paqonometr uzunluğunda yeni dəmir yolu xətti çəkilmişdir. Naxçıvan stansiyasında isə 220 paqonometr uzunluğunda əlavə dəmir yolu xəttinin çəkilməsi xammalın daşınması işini asanlaşdırmışdır.





Culfa sərhəd-keçid stansiyası ərazisində də yenidənqurma işləri vaxtında başa çatdırılmış, kontakt şəbəkəsi xətləri, elektrik və rabitə sistemləri yenilənmiş, Culfa dartı yarımstansiyasının binası əsaslı təmir olunmuşdur. Ötən müddət ərzində Naxçıvan, Ordubad, Şərur və Şahtaxtı stansiyalarında yolların və elektrik mərkəzləşdirmə qurğularının texniki vəziyyəti yaxşılaşdırılmış, qatarların təhlükəsiz hərəkəti təmin edilmişdir. 2014-cü ilin dekabr ayının 26-da İnfrastruktur İdarəsinin inzibati binası əsaslı yenidənqurmadan sonra istifadəyə verilmiş, Naxçıvan, Qarğalıq və Qıvraq dartı yarımstansiyalarında aparılan əsaslı təmir işləri başa çatdırılmışdır.

Hazırda Texniki İnzibati Binaların Təmir-Tikinti İdarəsi tərəfindən Ordubad dəmiryol sərnişin vağzalı və Yol Sahəsinin inzibati binalarında, Ordubad İdarəetmə Mərkəzi və Yol Sahəsinin yardımçı binalarında, yük anbarında, sərnişin və yük platformalarında və onları əhatə edən ərazidə kompleks tikinti, yenidənqurma və əsaslı təmir işləri, eləcə də Aza, Gülüstan və Naxçıvançay Təhlükəsizlik Komandası inzibati binalarında aparılan əsaslı təmir işləri davam etdirilir. Muxtar respublikamızda dəmir yolu infrastrukturunun texniki bazasının gücləndirilməsi istiqamətində həyata keçirilən ardıcıl tədbirlərin davamı olaraq Culfa stansiyasında müasir tələblərə cavab verən yeni İstismar Vaqon Deposunun da tikintisi aparılır.

Naxçıvan dəmir yolu nəqliyyatında beynəlxalq əməkdaşlıq da ön planda saxlanılır, əlaqələr ilbəil inkişaf etdirilir. 2016-cı il fevralın 23-də Tehran şəhərində "Azərbaycan Respublikası hökuməti ilə İran İslam Respublikası hökuməti arasında Azərbaycan və İran dəmir yollarının əlaqələndirilməsi haqqında" Saziş imzalanmışdır. İki dost və qonşu ölkə arasında əlaqələrin daha da dərinləşməsinə yönəlmiş həmin sazişə əsasən 2016-cı il dekabrın 29-da Naxçıvan-Təbriz-Tehran-Məşhəd sərnişin qatarı fəaliyyətə başlamışdır. Bununla əlaqədar Bakı şəhərindən 3 yeni sərnişin vaqonu gətirilmişdir. Naxçıvan və Culfa stansiyalarında sərnişinlərin gömrük və sərhəd buraxılışı qeydiyyatının asanlaşdırılması məqsədilə müasir avadanlıqlar alınaraq quraşdırılmış, stansiyalarda miqrasiya və viza xidmətləri yaradılmışdır. Hazırda Bakı-Tbilisi-Qars dəmir yolunun Naxçıvan-Culfa-Təbriz dəmir yolu xəttinə birləşdirilməsi istiqamətində müvafiq tədbirlər həyata keçirilir.

İran İslam Respublikası ərazisindən keçməklə Naxçıvan Muxtar Respublikasına gətirilən və aparılan yüklərin daha ucuz qiymətə daşınması və səmərəli nəqliyyat marşrutları da təmin edilmişdir. Belə ki, Saraks üzərindən Orta Asiyaya və Bəndər-Abbas limanına marşrutlar işlənmiş, yükdaşıma tariflərinə güzəştlər olmuşdur. Bunun nəticəsidir ki, ötən il Türkmənistan Respublikasından İran İslam Respublikası ərazisindən keçməklə muxtar respublikamıza dəmir yolu vasitəsilə 3383 ton, cari ildə isə 3200 ton gübrə gətirilmişdir.

Muxtar respublikada dəmir yolu nəqliyyatı sisteminin idarə olunması, eləcə də yenidənqurma işlərinin həyata keçirilməsi üçün ixtisaslı kadrların hazırlanmasına da xüsusi diqqət yetirilir. Bu məqsədlə ali və orta ixtisas təhsili müəssisələrində müvafiq ixtisaslar üzrə müasir tədris bazası yaradılmışdır. Dəmir yolu sahəsində çalışan işçilərin peşəkarlıq səviyyəsinin artırılması da diqqət mərkəzində saxlanılmış, istehsalatdan ayrılmamaq şərti ilə 14 dəmiryolçu Naxçıvan Regional Peşə Tədris Mərkəzində orta ixtisas peşə kursunu müvəffəqiyyətlə bitirmişdir.

Dəmir yolunun inkişafı istiqamətində həyata keçirilən tədbirlər, yaradılan nümunəvi iş şəraiti, dəmiryolçulara göstərilən dövlət qayğısı onların əməyinə verilən ən yüksək qiymətdir. Ötən illərdə muxtar respublika dəmiryolçularının əməyi yüksək qiymətləndirilmiş, onlardan 2-si Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünə, 1-i "Şöhrət" ordeninə, 2-si "Azərbaycan Respublikasının Əməkdar mühəndisi" fəxri adına layiq görülmüş, 20 dəmiryolçu isə "Tərəqqi" medalı ilə təltif olunmuşdur.

*Naxçıvan dəmiryolçuları bundan sonra da öz işlərini günün tələbləri səviyyəsində quracaq, sərnişinlərə yüksək səviyyədə nəqliyyat xidməti göstərəcək və muxtar respublikanın sosial-iqtisadi inkişafına öz töhfələrini verəcəklər.*

***"Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətinin mətbuat xidməti***

*İstehsal müəssisələri*

# Soyuq aylarda süd və süd məhsullarına tələbat artır

## *"D-adlı qaymaq" bu tələbatın dolğun ödənilməsi üçün çalışır*

***Ölkəmizdə, eləcə də muxtar respublikamızda sahibkarlığın inkişafına dövlət tərəfindən göstərilən qayğı əlverişli biznes mühitinin yaradılması üçün geniş imkanlar açıb. İqtisadi siyasətin prioritet sahələrindən olan sahibkarlığın inkişafı istiqamətində ardıcıl olaraq dövlət-sahibkar münasibətlərinin inkişaf etdirilməsi, bu sahəyə dövlət dəstəyi mexanizmlərinin genişləndirilməsi, biznes mühitinə dair qanunvericiliyin və inzibati prosedurların təkmilləşdirilməsi, maarifləndirmə və bir sıra kompleks tədbirlər həyata keçirilir. Məhz bütün bunların nəticəsi kimi, bu gün muxtar respublikada sahibkarlıq inkişaf dinamikasına malikdir və özəl sektor öz məhsulları ilə daxili bazara töhfələrini verir. Son illər yaradılan istehsal müəssisələrinin əksəriyyəti əhalinin keyfiyyətli ərzaq təminatına xidmət edir. Belə müəssisələrdən biri də ötən il avqustun 26-da fəaliyyətə başlayan "D-adlı qaymaq" Məhdud Məsuliyyətli Cəmiyyətidir.***

Adıçəkilən müəssisə Naxçıvan şəhərinin Əliabad qəsəbəsində fəaliyyət göstərir. Ötən günlərdə yolumuzu həmin ünvandan salıb, buradakı iş prosesi ilə tanış olduq. Müəssisənin rəhbəri Elşad Məmmədov söhbət zamanı bildirdi ki, kütləvi qidalanma üçün əsas etibarilə inək südündən istifadə olunur. Belə süddə orqanizm üçün lazım olan bütün mineral maddələr həll olmuş vəziyyətdə toplandığından asan və yaxşı mənimsənilir. Süd və süd məhsullarını heç nə ilə əvəz etmək olmaz. Xüsusən uşaqlar, xəstələr və yaşlı adamlar üçün onlar çox faydalıdır. Başqa sözlə, süd təbiətin "bişirdiyi xörək"dir. Süd üçün iştaha lazım deyil, halbuki başqa qidalar iştahasız həzm olunmur, onun həzm edilməsi də çox rahatdır.

O qeyd etdi ki, süd və süd məhsullarına olan tələbatı nəzərə alaraq ötən il yeni müəssisə yaratmağa qərar verdik. Müəssisənin yaradılması məqsədilə biznes-plan hazırlayıb Sahibkarlığa Kömək Fonduna təqdim etdik. Fond tərəfindən ayrılan maliyyə dəstəyi müəssisənin sonrakı fəaliyyətinə stimul oldu. Müəssisə üçün ayrılmış ərazidə layihəyə uyğun olaraq istehsal sahəsi, xammal və hazır məhsulların saxlanılması üçün soyuducu anbar, laboratoriya, iaşə xidməti göstərilməsi üçün yeməkxana və digər yardımçı otaqlardan ibarət yeni bina inşa olundu.

Sahibkar onu da vurğuladı ki, xammal əldə edilən fermalarda müəssisə əməkdaşları tərəfindən sanitariya vəziyyəti, heyvanların





sağlamlığı və yemlənmə şəraitinə də xüsusi fikir verilir. O fermalara üstünlük verilir ki, burada inəkləri sağdıqda, südü saxladıqda, daşıdıqda, emal etdikdə və payladıqda südə mikrob düşməsinə və onun çirklənməsinə yol verilmir. Heyvanların yemi və dərisi, işçilərin əlləri və paltarı təmiz olur, qablar qaynar qələvi məhlul ilə yuyulub, sonra xlorlu əhəng məhlulu ilə dezinfeksiya edilir. Təzə sağılmış süd süzgəcdən keçirilir. Eləcə də sağıcıların və südlə təmasda olan digər şəxslərin sağlamlığı və şəxsi gigiyenasına nəzarət edilir.

İnsan orqanizmi üçün vacib elementlərlə zəngin olan 100 faiz təbii süddən xama, pendir, qatıq, ayran, dovğa istehsal olunan bu müəssisədə istehsal prosesi təkmilləşdirilib, daxili bazarın tələbatına uyğun olaraq yeni çeşiddə süd məhsulları "Epi" əmtəə nişanı ilə bazara çıxarılıb. İstehsal sahəsində istifadə olunan avadanlıqlar Türkiyədən gətirilib. Gündəlik istehsal gücü 10 tona çatan müəssisədə istehsal avtomatlaşdırılıb, sanitar-gigiyenik qaydalara ciddi əməl olunur. Müəssisənin məhsullarının vaxtında və keyfiyyətli şəkildə satış mərkəzlərinə çatdırılması diqqətdə saxlanılır. Bu məqsədlə "İsuzu" markalı soyuducu maşınlarından istifadə edilir.

Qeyd edək ki, müəssisənin fəaliyyətində qarşıya qoyulan məqsəd əhalini yüksəkkeyfiyyətli, ekoloji cəhətdən təmiz təbii məhsullarla təmin etmək və idxalın qarşısını almaqdır. İstehsal edilən məhsulların keyfiyyətini artırmaq üçün muxtar respublikanın bölgələrində heyvandarlıqla məşğul olan fermerlərlə əlaqələr yaradılır, yerli xammaldan istifadə edilir. Müəssisə gələcəkdə istehsalın həcmini daha da artırmağı qarşısına məqsəd qoyub. Əməkdaşlar tərəfindən tez- tez istehlakçılarla da əlaqələr yaradılır, alıcı məmnuniyyətinin səviyyəsi nəzarətdə saxlanılır, onlar tərəfindən məhsulların keyfiyyəti ilə bağlı göstərilən iradlar müzakirəyə çıxarılır, mövcud problemlər qısa zamanda aradan qaldırılır.

**Nail ƏSGƏROV**

***Orijinallığı, bənzərsiz naxışları, heyrətamiz rəng çalarları, kompozisiya zənginliyi ilə seçilən Naxçıvan xalçaları... Hər bir ilmə, hər bir naxış milli mədəniyyətimizin qədimliyindən, xalqımızın tarixindən, onun düşüncə tərzindən, adət-ənənəsindən, məişətindən xəbər verir. Xalçalarımız təkcə bədii estetik zövqün daşıyıcısı deyil, həm də milli və mənəvi dəyərlərin, mədəni təşəkkülün, xalq təfəkkürünün ilmələrdə pıçıltısıdır. Evləri bəzəyən min bir naxışlı xalçalarda ömrünü ilmələrə calayan el sənətkarlarının ürəyinin əksini görmək olar. Bu ilmələri vuran, naxışların harmoniyasını quran insanların əziyyətləri min bir rəngin parıltısında sanki öz dincliyinə qovuşur.***

*Milli dəyərlərimizi öyrənək və yaşadaq*

# İlmə-ilmə yazılan yaddaşımız

Boyalarının tükənməz zənginliyi, naxışlarının əsrarəngiz gözəlliyi, yaradıcılıq təxəyyülünün gücü və yüksək sənətkarlığı ilə seçilən bu sənət nümunələri xalqımızın yaşı minilliklərlə ölçülən zəngin mədəniyyətinin ən dəyərli incilərindən sayılır. Bu xalçalarda nəsillərin bir-birinə ötürdüyü ornamentlər, xalqın təfəkkürü yaşayır. Xalçaçı qadınlarımız əl işləri ilə özləri də çox vaxt fərqində olmadan keçmişlə gələcək arasında əlaqələndirici rolunu oynamışlar. Ona görə də Naxçıvan xalçaçılıq sənətinin bənzərsiz örnəkləri olan bu el sənəti nümunələrinin öyrənilməsi olduqca əhəmiyyətlidir.

Şahbuz rayonunun kəndlərini gəzsək, çox qeyri-adi gözəlliklərin şahidi olar, min bir çeşidli xalq sənəti nümunələrinə rast gələ bilərik. Yerlərdə "gəbə" deyib əzizlənən, bəzən "ana yadigarıdır" deyib göz bəbəyi kimi qorunan, "sanki övlad böyüdürmüş kimi nazını çəkib toxumuşam" deyən əlləri məharətli, zövqləri incə el sənətkarlarımızın əməyi olan xalçalarımızın sorağı ilə rayonun Yuxarı Qışlaq kəndinə üz tutduq. Yolumuzu əbəs yerə bu kənddən salmadıq. Öyrəndik ki, vaxtilə bu sənətin geniş inkişaf tapdığı Yuxarı Qışlaq kəndi hələ qədimdən çeşidli xalça növləri ilə seçilib. Bu yurdun xalça ustaları tarixi ilmə-ilmə xalçalara həkk edib, öz məişətini, məşğuliyyətini, tarixini xalçalarda yaşadıb. Yerli sakinlərdən eşitdiyimizə görə, o vaxtlar bu kənddə bütün evlərdən həvənin, kirkitin səsi eşidilərmiş. Xalçaçılıq bu yurdun insanlarına öz ulularından qalan qiymətli bir mirasdır. Bu kənddə toxunan xovlu və xovsuz xalçalar bədii tərtibatı, rəng çalarları ilə bu günə qədər göz oxşayır. Neçə-neçə arzunun, ümidin bəhrəsi olan bu dəyərli sənət nümunələrinin yaradıcılarından biri kəndin 82 yaşlı sakini Güllər Qaybalıyevadır. Gözünü açıb əsrarəngiz xalça aləmində böyüyən, hələ gənc yaşlarından xalçaçılıqla məşğul olan Güllər nənə o illəri belə xatırlayır: "Xalça tək bir insanın işi deyil, qonum-qonşu cəm olub bir yerə, başlayardıq ilmələri vurmağa. O vaxtlar bu kənddə kilim toxuyan da vardı, gəbə, garbıt, cecim, şəddə toxuyan da. Kirkitimiz, həvəmiz, cəhrəmiz, darağımız – hər ləvazimatımız olurdu. Gecədən səhərə qədər həvəslə cəhrə əyirir, yun darayırdıq. Lampa işığına toxumuşuq bu xalçaları, o qədər həvəsimiz vardı".

Bu yurdun xalçalarının araya-ərsəyə gəlməsində xanımlarla yanaşı, kişilərin də rolu böyük olub. Güllər nənənin 60 illik ömür-gün yoldaşı, hələ uşaq vaxtlarından sirli-sehrli xalça aləmində böyüyən, 84 yaşlı Allahverdi baba o illərdən bizə həvəslə danışdı: "Yaxşı yadımdadır, o zaman balaca uşaq idim. Gözümü açıb görmüşəm ki, analarımız, nənələrimiz xalçaçılıqla məşğuldur. Palazlar, kilimlər, gəbələr, garbıtlar, cecimlər toxuyurdular. Heyvanlarımızın yununu yun daraqlarından keçirər, cəhrədə ip əyirərdilər. Soğan qabığından, boyaq otlarından və təbiətimizdə bitən digər bitki və otlardan elə gözəl rənglər əldə edərdilər ki, insan valeh olardı. Sonra həmin ipləri o rənglərlə boyayardılar. Bizim xalçalarımızın bu gün öz rəngini, təravətini qoruyub saxlamasının sirri məhz o təbii boyalardır. Kişilər isə yunun qırxılmasında, hananın qurulmasında qadınlara kömək edərdilər. Bu xalçalar üzərində zəhmətimiz çox olub. Ona görə də bunlar bizim üçün çox qiymətlidir".



Xalça min illərin yolçusu olan, əsrlərdən, qərinələrdən keçib gələn, özü ilə min bir sehr gətirən qeyri-adi, sehrkar bir canlıdır sanki. Onun öz dili, öz səsi, öz taleyi, alın yazısı var. Yerli sakinlərin dediyinə görə, əvvəllər bu kənddə hər bir evdə, hər bir ocaqda ən azından bir xalçaçı olardı. Onların toxuduqları xalçaların bədii-estetik görünüşü, ordakı naxışlar, təsvirlər bu gün də valehedici gözəlliyi ilə diqqəti cəlb edir. Nələr-nələr dil açıb danışır bu xalçaların naxışlarında. Hər kəs öz ovqatını, daxili aləmini, içində kök salan hisslərini xalçalara həkk edərdi. Ona görə də xalçalarımız başdan-başa tarixdir, hər ipi, hər çeşnisində, hər ilməsində bir ürək döyüntüsü var. Sənətə dərindən bələd olan xalça ustalarımız bu nümunələrdə elə təsvirlər, elə formalar işləyiblər ki, bu gün də onlar sirliliyini qoruyur. Elə Yuxarı Qışlaq kəndinin vaxtilə məşhur xalçaçılarından sayılan 68 yaşlı Sona xanımın da çox xatirəsi bu xalçalarda əbədiləşib. Öz əllərinin zəhməti ilə daradığı, cəhrədə əlçim-əlçim əyirdiyi bu xalçalar indi Sona xanımın göz bəbəyi kimi qoruduğu bir əşya, onun hisslərinin, duyğularının, sevincinin, kədərinin yoldaşına çevrilən sənət nümunələri kimi qiymətlidir. O, bu kəndin xalçaçılıq ənənələri ilə bağlı yaddaşında yaşayanları bizimlə paylaşdı: "Gündüz ev işləri ilə məşğul olub, gecələr isə çırağı qoyurduq yanımıza, onun işığında bu xalçaları toxuyurduq. Xalça kəsiləndə o evdə toy-bayram olardı. Sevinirdik ki, bir xalçanı toxuyub başa çatdırdıq və artıq qışa hazırıq".

Kəndin 88 yaşlı sakini Səkinə Cəfərovanın gənclik illərinin izləri yaşayan bir xalça nümunəsində maral və quş təsvirləri əks olunub. Məlumdur ki, xalçalarımız üzərində tətbiq olunan hər bir naxış, ornament kimi heyvan təsvirlərinin də öz mənası, anlamı var. Naxçıvan xalçalarında tez-tez rast gələnən maral bütün türklərin eyni rəmzi mənası olan ümumi totemdir. Türkdilli xalqların təsəvvüründə maral yüksəliş rəmzi və böyük güc nişanəsidir. Maralın ağacabənzər buynuzları cavanlaşdırma, daim təzələnmə və zamanın gedişini genişləndirmə rəmzi kimi yozulur. Xalçalardakı quş motivləri isə müqəddəsliyi, həsrəti, intizarı ifadə etməklə yanaşı, xalçanın bədii məzmunundan asılı olaraq həm də mistik dünya ilə yaşanan həyat arasında elçi funksiyasını ifadə edir.

Yuxarı Qışlaq kəndinin xalçaları geniş naxış müxtəlifliyinə malikdir. İlk baxışda qonşu kəndlərdə toxunan xalçalara bənzəsə də, diqqətlə baxdıqdan sonra əmin olursan ki, bəzi ornamentlər sırf bu bölgənin özünəməxsus elementləridir. Belə ki, bu xalçalarda əks olunan və xalçaçıların özlərinin belə adlandırdığı "əl-ələ", "kərpicgöl", "mərcangölü", "qaragöl", "yaşılgöl", "midaxil" kimi naxış adları Yuxarı Qışlaq kəndinin özünəməxsus ornamentlərindən sayılır.

Xalı-xalçalarımıza baxanda söz sənətimizin inciləri olan bayatılarımız yada düşür. Axı bizim xalçalarımız nənə-babalarımızın dilində olan bayatılarla, şeirlərlə uyğunlaşdırılıb toxunmuş və nəsillərdən-nəsillərə ərməğan edilmişdir. Xalçaçılardan eşitdiyimizə görə, elə ki, iplər hazır oldu, hana qurulur, dilləri bayatılı, nəğməli gəlinlər-qızlar sözün ilməsini xalçanın ilməsinə bənd edərmişlər. Kəndin bir vaxtlar məşhur xalçaçılarından olan Zəhra nənənin yaddaşında söz incilərimiz bu günə qədər yaşayır:

*Marallar düzə gəlsin,*
*Otlasın, düzə gəlsin.*
*Kim belə kilim toxusa,*
*Durmasın, bizə gəlsin.*

İqlim şəraiti ilə əlaqədar olaraq bu kənddə daha çox xovlu, yəni yun xalça toxunuşuna üstünlük verilib. Lakin bu faktor da, güman ki, bədiilik hissi, gözəllik duyğuları, insanın həyatda yaratdığı hər bir əşyada əbədiliyi görmək istəyi xalq ustalarını məcbur edib ki, naxışların zərif nüanslarını verməyə imkan yaradan, təbiətin zəngin boyalarını, rəng çalarlarını canlandırmağa qadir olan, əşyaya davamlılıq keyfiyyəti gətirən toxunuş üslubu axtarıb tapsınlar. Xovlu xalçaların yaranması da məhz bununla bağlı olub.

Xalça yolgöstərəndir, himayəçidir, onu toxuyanın gizli sirlərinin kodlarını əks etdirən müdriklərin yazdığı kitabdır. Xalça bitib-tükənməyən bir nəğmədir, oxunduqca maraqlı gəlir. İnsan nə qədər həyəcanlı, narahat olsa da, əlini xalçaya sürtsə, canında bir rahatlıq, əhvalında bir duruluq hiss edər.

*Xalça başdan-başa hissiyyatdır. Burada nənə-babalarımızın ruhu ilə danışırsan sanki. Hər xalça çeşnisi bir yurdun, bir elin, bir məkanın melodiyasıdır, təfəkkür tərzimiz və tariximizdir. "Xalçam harda, yurdum orda", – deyib babalarımız. Xalça yurd, torpaq qədər əziz və toxunulmaz olub bu yerlərdə. Bu sənət nümunələri, keçmişimizin yadigarları Yuxarı Qışlaq kəndində bu gün ən qiymətli sərvət kimi qorunur. İnanırıq ki, bundan sonra da qorunub yaşadılacaq.*

**Sahilə ARİFQIZI**

*İdman*

## Muxtar respublika birinciliyinə yekun vurulub



Ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında Duzdağ Fizioterapiya Mərkəzi yolunda keçirilən ekstremal idman yürüşü üzrə Naxçıvan Muxtar Respublika birinciliyinə yekun vurulub.

Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının 26-cı ildönümünə həsr olunmuş yarış Naxçıvan Muxtar Respublikası Gənclər və İdman, Təhsil nazirlikləri, Hava və Ekstremal İdman Növləri Federasiyasının təşkilatçılığı ilə keçirilib. Birincilikdə 6 komandanın heyətində 60-a yaxın idmançı mübarizə aparıb.

Yarışın yekun nəticəsinə əsasən qızların mübarizəsində qalib adını Naxçıvan Dövlət Texniki Kollecinin tələbəsi Cansu Abbasova qazanıb. Həmin kollecin digər tələbəsi Telli Abbasova ikinci, Naxçıvan Tibb Kollecinin tələbəsi Dünya Əmrahlı isə üçüncü olub.

Oğlanların mübarizəsində finiş xəttinə ilk olaraq Naxçıvan Musiqi Kollecinin tələbəsi Kazım Quliyev çatıb. Digər iki pillədə isə Naxçıvan Dövlət Texniki Kollecinin tələbəsi Cavid Qasımov və Naxçıvan Musiqi Kollecinin tələbəsi Səfər Tağıyev qərarlaşıblar.

Sonda qaliblərə təşkilatçılar tərəfindən diplom və hədiyyələr təqdim olunub.

Birincilikdən sonra idmançılar Duzdağ Fizioterapiya Mərkəzi ilə tanış olublar.

## Poliatlon çoxnövçülüyü üzrə yarışın qalibləri müəyyənləşib



Kəngərli Rayon Gənclər və İdman İdarəsi, Təhsil Şöbəsi, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Kəngərli Rayon Şöbəsinin təşkilatçılığı ilə ümumtəhsil məktəblərinin şagirdləri arasında payız çağırışına həsr olunmuş "Vətənin müdafiəsinə hazıram" poliatlon çoxnövçülüyü üzrə rayon birinciliyi keçirilib.

Tədbirdə rayon Gənclər və İdman İdarəsinin rəisi Vüsal Hüseynov, Təhsil Şöbəsinin əməkdaşı Səməd Səmədov, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Rayon Şöbəsinin əməkdaşı Abbas Abbaslı çıxış edərək muxtar respublikada gənclərə göstərilən diqqət və qayğıdan, idmanın inkişafı istiqamətində görülən məqsədyönlü tədbirlərdən danışıblar.

Yarışda 8 ümumtəhsil məktəbin komandaları iştirak ediblər. İştirakçılar 100 metr məsafəyə qaçış, turnikdə dartınma, qumbaraatma və 2000 metr məsafəyə qaçış növlərində güclərini sınayıblar.

Komanda hesabında 795 xal toplayan Qıvraq qəsəbə tam orta məktəbinin komandası qalib adını qazanıb. 650 xalla Qarabağlar kənd 2 nömrəli tam orta məktəbin komandası ikinci, 558 xalla Xok kənd tam orta məktəbinin komandası üçüncü olub.

Qaliblər yarışın təşkilatçılarının kubok və diplomları ilə təltif ediliblər.

## Sərrast atıcılar məlum olub

*Yeni Azərbaycan Partiyası Şərur Rayon Təşkilatının Gənclər Birliyinin, rayon Gənclər və İdman İdarəsi, Təhsil Şöbəsi və Atıcılıq Federasiyasının Şərur rayon bölməsinin təşkilatçılığı ilə 18 oktyabr – Müstəqillik Gününə həsr olunmuş atıcılıq üzrə məktəbli qızlar arasında rayon birinciliyi keçirilib.*

Birincilikdə 10 məktəbdən 30 şagird mübarizə aparıb. Yekun nəticəyə əsasən Şərur şəhər 2 nömrəli tam orta məktəbin şagirdi Nərmin Nadirova birinci olub. Aralıq kənd tam orta məktəbinin şagirdi Gülçin Oruclu ikinci, Arbatan kənd tam orta məktəbinin şagirdi Nurcan Məmmədova isə üçüncü yerə layiq görülüblər.

Qaliblərə təşkilatçılar tərəfindən diplomlar təqdim olunub.

**✍ Ceyhun MƏMMƏDOV**

***İtmişdir***

Adıgözəlov Məzahir Qurban oğlunun adına olan ümumvətəndaşlıq pasportu itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Muxtar Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 809